**“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 26-cı bəndini rəhbər tutaraq **qərara alır:**

“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 7, maddə 813; 2016, 3, maddə 411) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.5-ci maddənin birinci cümləsinə və 1.0.18-ci maddəyə “şəxs” sözündən əvvəl “hüquqi” sözü əlavə edilsin.
2. 1.0.23-cü maddəyə “alətlərindən” sözündən sonra “, habelə pul vəsaitindən” sözləri əlavə edilsin.
3. 5.6.3-cü maddədə “olmadıqda” sözü “olduqda” sözü ilə əvəz edilsin.
4. 38.3-cü maddənin birinci cümləsində “icrası” sözü “icrasına dair daxili” sözləri ilə əvəz edilsin.
5. 62.6.1.4-cü maddədə “təsisçilərin” sözü “mühüm iştirak payı sahiblərinin” sözləri ilə əvəz edilsin.
6. 79.1.9-cu maddəyə “götürənləri” sözündən sonra “(götürülənləri)” sözü əlavə edilsin.
7. 83.0.7-ci maddədən “qiymətlərlə” sözü çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 noyabr 2016-cı il
390-VQD